Azərbaycan.- 2024.- 4 aprel, № 69.- S.10.

● Yurdu yaşadan qəhrəman

# Onun arzularının önündə Vətən sevgisi idi

**Vətənin igid oğlu Elimdar Səfərov 1992-ci il iyulun 26-da Yardımlı şəhərində dünyaya gəlib. 1993-cü ildə ailəsi ilə Neftçala rayonunun Aşağı Qaramanlı kəndinə köçüb. Ailədə iki oğul, dörd qız böyüyüb. Onlar kiçik yaşlarından ataları Səlimxandan, anaları Aminədən zəhmətsevərliyi, təəssübkeşliyi öyrəniblər. Kasıblıq ailədəki mehribanlığa kölgə sala bilməyib. Əl-ələ verib ev tikib, gələcək xoş günlərin xəyalını qurublar…**



Hərbçi olmaq Elimdarın ən böyük arzusu idi. İdmanla məşğul olurdu, idmanın karate növünü öyrənirdi. Qardaşı əsgəri xidmətdən qayıtdıqdan sonra ona da çağırış gəldi. Elimdar 2009-cu il oktyabrın 1-də hərbi xidmətə yollandı.

Əsgər kimi xidmət etdiyi günlərdə qəti qərarını verdi. Bir gün qardaşı ilə telefon danışıqlarında ona ordu sıralarında qalmaq istədiyini dedi. Elimdar gizir kimi fəaliyyətə başlamağa icazə verməsi üçün anasından halallıq istədi. Aminə ana oğlunun arzusuna qarşı çıxmadı. Ona xeyir-dua verib vətəninə, xalqına layiqli, xeyirli hərbçi olmasını dilədi.

Ölkəsinin ərazilərinin Ermənistanın işğalına məruz qalması, Qarabağ və Şərqi Zəngəzur bölgələrinin düşmənin tapdağında olması gizir Elimdar Səfərovu hiddətləndirirdi. Yurdumuzu təcavüzkar Ermənistanın silahlı qüvvələrindən azad etmək, müqəddəs vətən torpaqları uğrunda döyüşlərdə canından keçmiş şəhidlərimizin qisasını almaq bütün arzularının ilki idi.

Hərbçi yoldaşları ilə çiyin-çiyinə xalqımızı bu xoşbəxt günlərə qovuşdurmaq ümidi və inamı ilə Azərbaycan Ordusunda xidmət edirdi. Peşəsini dərindən bilirdi, güclü, iradəli, ayıq-sayıq idi. Əməliyyatlar zamanı istiqaməti düzgün təyin edir, müşahidələrində və ehtimallarında heç zaman yanılmırdı. Ona görə də qrup üzvləri ona çox güvənir, Elimdarla birlikdə əməliyyatda olarkən geriyə uğurla qayıdacaqlarına inanırdılar.

Ailəsinə çox bağlı idi. Dostlarına dünyada hamıdan çox anasını sevdiyini deyirdi. Hündürboylu, yaraşıqlı gizir oğlunun toyunu görmək arzusu ilə yaşayan anasını sevindirməyi, toy etməyi düşünürdü. Ancaq Vətən sevgisi bütün duyğularının, arzularının önündə dayandı…

Zəbt etdiyi ərazilərimizdə möhkəm istehkamlar qurmuş düşmən gündən-günə azğınlaşırdı. 2016-cı ilin mart ayında Ermənistanın silahlı qüvvələrinin bölmələri yenidən fəallaşdı. Gecə-gündüz mövqelərimizə atəş yağdırırdılar. Ordumuz cavab atəşi ilə düşməni susdururdu. Azərbaycanın Xüsusi Təyinatlı Qüvvələri, kəşfiyyat qrupları Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısını alır, düşmənə layiqli cavab verirdilər. Həmin igid Azərbaycan oğullarının sırasında gizir Elimdar Səfərov da var idi. O, 2016-cı ilin aprelin 1-dən 2-nə keçən gecə başlayan döyüşlərdə qəhrəmanlıq nümunəsi göstərirdi.

Elimdar Səlimxan oğlu Səfərov 2016-cı il aprelin 2-də işğalçı Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində baş verən döyüşlərlərdə şəhid oldu. Aprelin 4-ü Neftçala rayonunun Aşağı Qaramanlı kəndində son mənzilə yola salındı.

Göstərdiyi qəhrəmanlığa görə, Elimdar Səfərov ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı ilə təltif edildi.

Vətən torpaqlarının yağı düşməndən azad olunması uğrunda canından keçmiş şəhid Elimdar Səlimxan oğlu Səfərovun arzusu 2020-ci ildə 44 günlük müharibədə və 2023-cü ildə baş verən lokal xarakterli antiterror əməliyyatlarında həyata keçdi. Şəhidlərimizin canlarından keçdikləri o torpaqlarda bu gün üçrəngli Azərbaycan bayrağı qürurla dalğalanır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***